**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Fətullayev Əzizbaba Atakişi oğlunun 8 yanvar 2010-cu il tarixli 609 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 85 saylı Şamaxı seçki dairəsindən Birinci Çaylı bələdiyyəsinə namizəd Fətullayev Əzizbaba Atakişi oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına 85 saylı Şamaxı dairə seçki komissiyasının 4 yanvar 2010-cu il taixli 01 saylı qərar protokolunun etibarsız hesab edilməsinə dair ərizə ilə müraciət etmişdir. Şikayətini onunla əsaslandırmışdır ki, seçki dairəsinin 24 saylı seçki məntəqəsində səsvermə günü yol verilmiş qanun pozuntuları barədə dairə seçki komissiyasına verdiyi ərizələrə baxılıb qərar çıxarılarkən onun tərəfindən 2009-cu il 23 – 30 dekabrda verilmiş ərizələr nəzərə alınmamışdır. Ona görə də xahiş etmişdir ki, 85 saylı Şamaxı dairə seçki komissiyasının 4 yanvar 2010-cu il taixli 01 saylı protokolu etibarsız hesab edilsin və Şamaxı rayon Birinci Çaylı seçki məntəqəsində keçirilmiş bələdiyyə seçkilərinin qanuna uyğunluğunun müəyyən edilməsi üçün komissiya yaradılsın.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası müraciəti qanunla müəyyən olunmuş müddətdə, tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırmışdır.

Araşdırma nəticəsində əldə olunmuş sübutlardan görünür ki, ərizəçilərin ərizədə qeyd edilən qanun pozuntuları ilə bağlı dairə seçki komissiyasına daxil olmuş müraciəti müəyyən edilmiş qaydada qeydə alınmış, dairə seçki komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və dairə seçki komissiyasının iclasında baxılaraq 4 yanvar 2010-cu il tarixli 01 saylı qərar edilmişdir. Qəbul edilən qərar protokoldan çıxarış şəklində şikayətçiyə çatdırılmışdır.

Araşdırma ilə əldə edilmiş sübutlarla təsdiq olunur ki, namizədin müraciətinə dairə seçki komissiyası tərəfindən tam və obyektiv baxılaraq ərizəsində göstərilən faktlar təsdiqini tapmadığı üçün təmin edilməmişdir. Belə ki, ərizəyə əlavə edilmiş kserosurət olan aktlardan müəyyən olunur ki, ərizəçi sübut kimi kənd sakinlərinin ona və digər namizədlərə səsverməsi barədə imza toplamışdır ki, bunun da mötəbər sübut kimi qəbul edilməsi seçki qanunvericiliyində nəzərdə tutulmamışdır.

Ona görə də, 85 saylı Şamaxı seçki dairəsi dairə seçki komissiyasının qərarının ləğv edilməsi üçün kifayət qədər sübutların olmaması ilə əlaqədar ərizənin təmin edilməsi üçün əsaslar yoxdur və ərizə təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Fətullayev Əzizbaba Atakişi oğlunun 8 yanvar 2010-cu il tarixli 609 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |